**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**akademik H.Ə.Əliyev adına COĞRAFİYA İNSTİTUTU**

*Əlyazması hüququnda*

**SƏBUHİ ƏLİBALA OĞLU TALIBOV**

# LƏNKƏRAN-ASTARA İQTİSADİ-COĞRAFİ RAYONUNDA TURİZMİN İNKİŞAF PERSPEKTİVLƏRİ

**5401.01 – İqtisadi coğrafiya**

**Coğrafiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi**
**almaq üçün təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**BAKI – 2018**

**Dissertasiya işi Bakı Dövlət Universiteti Coğrafiya fakültəsi "Xarici ölkələrin iqtisadi-siyasi coğrafiyası və turizm" kafedrasında yerinə yetirilmişdir.**

| | |
|---|---|
| **Elmi rəhbər:** | c.ü.e.d., professor<br>**N.G.Məmmədov** |
| **Rəsmi opponentlər:** | c.ü.e.d., professor<br>**N.A.Babaxanov** |
| | c.ü.f.d., dosent<br>**Z.T.İmrani** |
| **Aparıcı təşkilat:** | Azərbaycan Dövlət Pedaqoji Universiteti Tarix və Coğrafiya fakültəsinin "İqtisadi coğrafiya və CTM" kafedrası |

Dissertasiyanın müdafiəsi 02 mart 2018-ci il saat $14^{00}$-da Azərbaycan Milli Elmlər Akademiyası akademik H.Ə.Əliyev adına Coğrafiya İnstitutu nəzdində fəaliyyət göstərən D.01.091 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

*Ünvan: Az 1143, Bakı şəhəri, H.Cavid pr. 115, Akademiyanın əsas binası, 8-ci mərtəbə, akademik H.Ə.Əliyev adına Coğrafiya İnstitutu*

Dissertasiya ilə AMEA-nın akademik H.Ə.Əliyev adına Coğrafiya İnstitutunun kitabxanasında tanış olmaq olar.

Rəyləri möhürlə təsdiq olunmuş iki nüsxədə bu ünvana göndərməyiniz xahiş olunur: Az 1143, Bakı şəhəri, H.Cavid pr. 115, Akademiyanın əsas binası, 8-ci mərtəbə, akademik H.Ə.Əliyev adına Coğrafiya İnstitutu.

Avtoreferat 30 yanvar  2018-ci ildə göndərilmişdir.

**D.01.091 Dissertasiya Şurasının**
**elmi katibi, c.ü.f.d., dosent** **M.S.Həsənov**

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı**. Beynəlxalq miqyasda turizmin inkişaf tendensiyası göstərir ki, bu sahə ölkələrarası iqtisadi inkişafın, əhali məşğulluğunun, istehsal və qeyri-iqtehsal sektorunun əlaqələri şəklində qurulmasında əhəmiyyətli rol oynayır. Turizm sənayesi son illər dinamik inkişafına görə xidmət sahələri arasında birinci yeri turur. Bu baxımdan turizm-rekreasiya resurslarından səmərəli istifadə etməklə rəqabət qabiliyyətli turizm sənayesinin yaradılması və inkişafının təmin olunması ölkəmizin gələcək iqtisadi inkişaf strategiyasında əsas pioritet istiqamətlərdən sayıla bilər. Ölkədə bu sahənin inkişafını təmin etmək üçün qanunvericilik bazası təkmilləşdirilmiş, ölkənin turizm üzrə müsbət beynəlxalq imici yaradılmış, rəqabət qabiliyyətli turizm sektorunun inkişafi üçün dövlət proqramları və strateji yol xəritəsi hazırlanmış, regionların inkişafında bu sektorun əhəmiyyəti qeyd olunmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin apardığı məqsədyönüllü siyasət nəticəsində ölkədə turizmin inkişafı üçün əlverişli biznes mühiti yaradılmış, bu sahəyə ayrılan investisiyaların payı artmışdır. Prezidentin qeyd etdiyi kimi turizm sahəsi ölkədə qeyri-neft sektorunun inkişafında pioritet istiqamət olaraq müəyyən edilmiş, bu da qəbul edilən iki dövlət proqramında, strateji yol xəritəsində öz əksini tapmışdır.

Azərbaycanın geniş turizm imkanlarının olması təbii və iqtisadi regionlarda turizm təsərrüfatının inkişafına təkan verən amil kimi qiymətləndirilir. Lakin bu imkanlardan tam və dolğun səviyyədə istifadə olunmur. Bunun üçün ölkənin ayrı-ayrı bölgələrinin, o cümlədən tədqiqat apardığımız Lənkəran-Astara iqtisadi-coğrafi rayonunun daxili turizm potensialının öyrənilməsi, onlardan səmərəli istifadə yollarının müəyyən edilməsi, yeni turist xidmətlərinin formalaşdırılması, turizm növlərinin daha geniş dairəsinin tətbiqi olduqca aktualdır.

**Tədqiqat işinin obyekti.** Lənkəran-Astara iqtisadi-coğrafi rayonu və burada olan turizm obyektləridir.

**Tədqiqatın işinin predmeti.** Lənkəran-Astara iqtisadi-coğrafi rayonunda turizmin inkişafını şərtləndirən təbii ehtiyat potensialı, iqtisadi-coğrafi amillər, bu sahənin inkişaf perspektivləri və onun tətbiqi imkanlarıdır.

**Tədqiqatın məqsəd və vəzifələri**. Tədqiqatın əsas məqsədi Lənkəran-Astara iqtisadi-coğrafi rayonunda turizm təsərrüfatının kompleks şəkildə öyrənilməsi və müasir dövrdə inkişaf etdirilməsi yollarının müəyyən edilməsidir. Məqsədə nail olmaq üçün aşağıdakı vəzifələrin həlli qarşıya qoyulmuşdur:

- turizmin davamlı inkişaf konsepsiyası əsasında Lənkəran-Astara

iqtisadi-coğrafi rayonunda təbii və antropogen turizm ehtiyatlarından istifadənin araşdırılması;

- turizm inkişafı sahəsində mövcud olan problemlərin müəyyən edilməsi;
- regionun iqtisadi inkişafında turizm təsərrüfatının rolu və investisiya imkanlarının tədqiqi;
- turizmin inkişaf tendensiyasını müəyyən etmək üçün SWOT təhlilinin aparılması;
- yeni turizm marşrutlarının yaradılması üçün təkliflərin verilməsi və əsaslandırılması.

**Problemin öyrənilmə səviyyəsi.** Lənkəran-Astara iqtisadi-coğrafi rayonu üzrə Azərbaycan Respublikasının mühüm tərkib hissəsi kimi fiziki və iqtisadi-coğrafi baxımından alim və mütəxəssislər tərəfindən bir çox tədqiqat işləri yerinə yetirilmişdir. Regionda turizm təsərrüfatının təşkili, onun sahə və ərazi strukturunun formalaşmasına təbii şəraitin, iqtisadi və sosial-demoqrafik potensialın təsiri, regionun davamlı inkişafında həyata keçirilən dövlət proqramları və yol xəritəsi ilə aparılan işlər öyrənilmişdir.

**Tədqiqat metodikası**. Tədqiqat zamanı çöl tədqiqatları, statistik təhlil, tarixi-coğrafi, müqayisə, kartoqrafik, SWOT analizi metodlarından istifadə olunmuşdur.

**Tədqiqatın informasiya bazasını** bu sahədə tədqiqat aparmış alimlərin elmi əsərləri, metodik göstərişləri, Dövlət Statistika Komitəsinin məlumatları, Azərbaycan Respublikası Mədəniyyət və Turizm, Ekologiya və Təbii Sərvətlər, İqtisadiyyat nazirliklərinin hesabatları, turizm informasiya mərkəzinin məlumatları, ölkə prezidentinin sərəncamları, dövlət və yol xəritəsi proqramları təşkil edir.

**Müdafiə olunan müddəalar:**

1. Davamlı turizm konsepsiyası əsasında Lənkəran-Astara iqtisadi-coğrafi rayonunda təbii və antropogen turizm ehtiyatlarından istifadə;
2. Turizm təsərrüfatına investisiya cəlbediciliyinin əsaslandırılması və xidmət infrastrukturunun yaxşılaşdırılması;
3. Beynəlxalq təcrübədən istifadə etməklə yeni turizm marşrutlarının təşkili.

**Tədqiqat işinin elmi yeniliyi** aşağıdakılardan ibarətdir:

1. Turizm infrastrukturunun inkişafı sahəsində mövcud olan problemlər müəyyən edilmiş və SWOT analizi əsasında cəlbedici ərazilərin təhlili aparılmaqla yeni turizm marşrutları verilmişdir.
2. Regionun turizm potensialı ilə investisiya cəlbediciliyi arasındakı əlaqə əsaslandırılmış və yeni turizm növlərinin inkişaf istiqamətləri müəyyən

edilmişdir.

3. Lənkəran-Astara iqtisadi-coğrafi rayonunda turizm ehtiyatlarının davamlı inkişaf konsepsiyasında yeri müəyyən edilmiş, regiona tətbiq istiqamətləri qiymətləndirilmişdir.

4. Ekskursiya xidmətləri və turların təşkili imkanları dəyərləndirilmiş və beynəlxalq təcrübəyə əsaslanmaqla yeni xidmətlərin təşkili nəzərdə tutulmuşdur.

**Tədqiqat işinin praktik əhəmiyyəti.** Dissertasiya işindəki nəticə, təklif və tövsiyələrdən Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi, regionlardakı turizm informasiya mərkəzləri, mədəniyyət və turizm şöbələri, turizm şirkətləri istifadə edə bilər. Bununla yanaşı, dissertasiya işindən respublikanın ali təhsil müəssisələrində turizm ixtisası üzrə təhsil alan tələbələr, bu sahədə tədqiqat aparan elmi işçilər yararlana bilərlər.

**İşin aprobasiyası.** "Heydər Əliyevin və Azərbaycanda coğrafiya elminin inkişafı" mövzusunda respublika elmi konfransı (Bakı, 2013), Doktorant və gənc tədqiqatçıların XIX respublika elmi konfransı (Bakı, 2015), Gənc tədqiqatçıların IV beynəlxalq elmi konfransı (Bakı, 2016), III Beynəlxalq türk dünyası araşdırmaları simpoziumu (Bakı, 2016), Doktorant və gənc tədqiqatçıların XX respublika elmi konfransı (Bakı, 2016).

Dissertasiyanın mövzusu üzrə müəllifin 16 elmi məqaləsi çap olunmuşdur.

**Dissertasiyanın quruluşu və həcmi.** Dissertasiya işi giriş, dörd fəsil, nəticə və təkliflər, ədəbiyyat siyahısı və əlavələrdən ibarətdir. Dissertasiya işi 4 cədvəl, 48 şəkil və 12 xəritə daxil olmaqla, 155 kompüter səhifəsindən ibarətdir. Dissertasiyada 139 mənbədən istifadə edilmişdir.

## DİSSERTASİYA İŞİNİN ƏSAS MƏZMUNU

**Girişdə** mövzunun aktuallığı məqsəd və vəzifələri, obyekti və predmeti, nəzəri və metodoloji əsasları, istifadə olunacaq metodika, tədqiqatın informasiya bazası və məlumat mənbələri müəyyənləşdirilir, müdafiəyə çıxarılan əsas müddəalar, tədqiqatın elmi yeniliyi, elmi-praktik əhəmiyyəti göstərilir, işin aprobasiyası haqqında məlumat verilir.

Dissertasiyanın **"Turizmin inkişafının nəzəri-metodoloji əsasları"** adlanan I fəslində turizmin davamlı inkişafının nəzəri aspektləri, turizm sektorunun ölkənin təsərrüfat strukturunda yeri, turizmin öyrənilməsinin metodik əsasları verilmişdir.

Davamlı inkişaf bütün sahələrə nüfuz etdiyi kimi turizm sektoruna da öz müsbət təsirini göstərmişdir. Dünyanın əksər ölkələrində davamlı turizm

inkişafın bir konsepsiyası kimi tətbiq olunur. Davamlı turizm davamlı inkişaf konsepsiyasının tələblərinə əsaslanan turizmdir. Daxili və ya xarici turizm fəaliyyətinin həyata keçirilməsindən asılı olmayaraq, davamlı turizm ətraf mühitə ziyan vurmadan, bərpa olunmayan ehtiyatların qorunması kimi prinsipləri özündə birləşdirir. Davamlı inkişaf çoxtərəfli olmaqla, ətraf mühit və ehtiyatların qorunmasına, eyni zamanda sənaye və kənd təsərrüfatı ilə bağlıdır.

Davamlı turizm ölkənin istehsal və qeyri-istehsal sahələri ilə vəhdətdə inkişaf edərək, mövcud ehtiyatlardan səmərəli istifadə etməklə onu milli iqtisadiyyatın tərkib hissəsi kimi dinamikliyi təmin etməkdən ibarətdir. Müxtəlif sahələrin qarşılıqlı əlaqəsi zəminində turizm çoxsahəli funksional sistem əmələ gətirir və davamlı olaraq inkişafını təmin etməklə sosial-iqtisadi inkişaf ətraf mühitin və mədəni irs nümunələrinin qorunması kimi qruplaşdırılır.

Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra bütün sahələrdə aparılan iqtisadi islahatlar ölkə təsərrüfatının formalaşmasına və inkişafına birbaşa təsir etmişdir. Bunun nəticəsində qeyri-neft sektorunun imkişafı ilə əlaqədar olaraq bir sıra mühüm tədbirlər hazırlanmış və həyata keçirilmişdir. Bu da özünü ÜDM-in payında göstərmişdir. Belə ki, 2005-ci il ildə ÜDM-də turizmin payı 0,6% olduğu halda, 2015-ci ildə bu göstərici 2,7% təşkil etmişdir.

Ölkədə turizm sektorunun inkişaf dinamikliyi son beş ildə təmin olunmuş və iqtisadi inkişafda mühüm rol oynamışdır. Belə ki, 2010-2015-ci illər ərzində Azərbaycanda turizm müəssisələrinin sayı hər il orta hesabla 4,5%, turizm sahəsində məşğulluq səviyyəsi 6%, turizm məqsədilə ölkəyə gələn xarici vətəndaşların sayı 8,5% artmışdır. 2015-ci ildə ölkə iqtisadiyyatına yönəlmiş xarici investisiyaların strukturuna nəzər salsaq, məlum olur ki, ümumi investisiyanın 11,3%-i qeyri-neft sektoruna yönəlmişdir. Onun da aparıcı sahələrindən biri turizm sektorudur.

2015-ci ildə respublikamıza 2,1 mln. nəfər xarici turistlər gəlmişdir və bu turistlərin turizm məqsədi ilə çəkdikləri xərclərin həcmi 1,3 mlrd. manat olmuşdur. Turistlərin ölkədə orta qalma müddəti 5 gün təşkil edir ki, bu da region ölkələri ilə müqayisədə nisbətən yaxşı göstərici hesab edilə bilər.

2016-cı ildə Lənkəran-Astara iqtisadi-coğrafi rayonuna 17538 nəfər turist səfər etmişdir. Bu göstərici ilə Lənkəran-Astara iqtisadi-coğrafi rayonu Dağlıq Şirvan, Abşeron və Yuxarı Qarabağ iqtisadi-coğrafi rayonlarından irəlidə, digər iqtisadi-coğrafi rayonlardan geridə qalır. Turizm sahəsindən əldə olunan vəsaitə görə isə 2,4 mln manat ilə Yuxarı Qarabağ iqtisadi-coğrafi rayonundan irəlidədir.

Ümumiyyətlə, turizm potensialının öyrənilməsi, onun inkişafında mövcud problemlərin müəyyən edilməsi və onların qarşısının alınması, bu sahədə perspektiv istiqamətlərinin təyin edilməsi və qiymətləndirilməsinin aparılması üçün biz bir sıra alim və tədqiqatçıların elmi-nəzəri və metodik işlərini təhlil etmişik. Azərbaycan alimlərindən Ə.C.Əyyubov iqlim ehtiyatlarının kurort-turizm baxımından istifadə imkanlarını araşdırmış, B.Ə.Budaqov təbiət abidələrinin yayılması, təsnifatı və turizmdə istifadə imkanlarını vermiş, A.A.Salmanov arid ərazilərdə rekreasiya fəaliyyətinin təsərrüfat əhəmiyyətini qeyd etmiş, N.A.Babaxanov turizm-rekreasiya təsərrüfatında mineral-termal suların əhəmiyyətini söyləmiş, H.A.Xəlilov təbiət abidələri və ekoturizm ehtiyatlarının turizmin aparıcı sahəsi olduğunu bildirmiş, C.A.Məmmədov beynəlxalq turizmin təşkilinin iqtisadi-coğrafi xarakteristikasını vermiş, H.B.Soltanova Azərbaycanda turizm və kurort təsərrüfatının inkişaf istiqamətlərini tədqiq etmiş, S.H.Rəhimov turist marşrutları və ekskursiya işinin təşkili və Azərbaycanda turizmin inkişaf tarixi məsələlərini araşdırmış, V.S.Dərgahov rekreasiya ehtiyatlarını öyrənmiş və turizmdə istifadə imkanlarını araşdırmış, Z.T.İmrani turizm-rekreasiya potensialının regionlar üzrə cəlbediciliyini araşdırmış, turizm sektorunda investisiya siyasətinin mahiyyətini açıqlamış, B.Ə.Bilalov turizm menecmenti və turoperator fəaliyyətinin üstünlüklərini söyləmiş, R.S.Səfərov turizmdə nəqliyyat xidmətlərinin təşkili məsələlərinə baxmış, R.N.Kərimov turizmdə investisiya imkanlarını tədqiq etmişdir. Tədqiqat işlərində bütövlükdə Azərbaycanda turizmin inkişafının ümumi mənzərəsi barədə məlumatlar mövcud təbii və mədəni ehtiyatlara əsaslanaraq verilir. Bəzi hallarda Azərbaycanın ayrı-ayrı iqtisadi-coğrafi rayonlarının və ya bir inzibati rayonunda turizmin inkişaf məsələlərinə baxılır, həmçinin regional turizmin prioritet istiqamətləri ilə bağlı problemlər nəzərdən keçirilir. Qeyd olunan elmi araşdırma və tədqiqat işləri respublikanın hər bir regionu üzrə turizmin davamlı inkişaf probleminin öyrənilməsi ilə bağlı vacib mənbə rolunu oynayır. Çünki Azərbaycanın iqtisadi-coğrafi rayonları üzrə turizmin davamlı inkişafının bir çox aspektləri, o cümlədən turizmin müəyyən növlərinin ayrı-ayrı rayonlarda inkişaf etdirilməsi ümumi elmi əsaslara söykənir. Məsələn, I.Muntele və C.Iatunun konsepsiyalarına görə təbii, sosial, mədəni və tarixi ehtiyatların cəmi ərazinin turizm potensialını təşkil edir. V.Qlavan isə turizm potensialını qeyri-maddi amillərlə bağlayır. Onun fikrinə görə, turist fəaliyyətinə təbii və sosial mühitin təklif etdiyi imkanlar aiddir.

Dissertasiyanın ikinci fəsli "**Lənkəran-Astara iqtisadi-coğrafi rayonunda turizmin inkişaf xüsusiyyətləri**"nin öyrənilməsinə həsr olunmuşdur.

Rütubətli subtropik zonada yerləşən Lənkəran-Astara iqtisadi-coğrafi rayonu təbii şəraitinə və müxtəlif relyef formalarına görə respublikanın digər iqtisadi-coğrafi rayonlarından fərqlənir. Ərazi Lənkəran ovalığı və Talış dağlarından ibarət iki hissəyə ayrılır. Hündürlük fərqi Xəzər dənizi sahillərində -27 m-dən Talış dağlarının Gömürgöy zirvəsində 2493 m-dək dəyişir.

Lənkəran-Astara iqtisadi-coğrafi rayonunda turizmin inkişafı istiqamətini müəyyən etmək üçün ərazinin təbii və antropogen ehtiyatları öyrənilmişdir. Nəticə etibarilə isə turizm potensialından səmərəli istifadəni müəyyən etmək üçün SWOT analizi aparılmışdır. SWOT analizinin həyata keçirilməsinin əsas məqsədi turizm sektorunun inkişaf dinamikasının güclü və zəif tərəflərini müəyyənləşdirmək, xarici mühitdən qaynaqlanan imkan və təhlükələri aşkarlamaqdır.

Regionda turizm sektorunun inkişafına təkan verən güclü tərəflər:

*1)* Landşaft ekzotikliyi ilə seçilən ərazilər. Talış dağlarının cəlbedici meşə landşaftı, 30-dan çox təbiət abidəsinin mövcudluğu.

*2)* Əlverişli mikroiqlim şəraiti. Turizm mərkəzlərində özünəməxsus mikroiqlim şəraitinin olması istirahət və sağlamlıq turizminin inkişafına təkan vermişdir.

*3)* Mineral və termal sular. İqtisadi-coğrafi rayonda 100-dən çox termal su mənbəyi aşkar olunub ki, bunların da ümumi debiti 20 mln l/gündən çoxdur. Termal suların tərkibi sulfidli, hidrogen-sulfidli və natrium xloridli olmaqla temperaturları 12-66$^0$C-ə arasında dəyişir.

*4)* Qumlu çimərlik əraziləri. Çimərlik zonası Qızılağac körfəzindən başlayaraq İranla dövlət sərhədinə qədər 58 km məsafədə uzanır. Lənkəran rayonunda çimərlik üçün yararlı olan sahil xətti 3500 m təşkil edir.

*5)* Zəngin tarixi-memarlıq abidələri. Abidələrin öz orijinallığını qoruyub saxlaması, bir-birinə yaxın yerləşməsi, dərketmə turizmində və turist marşrutlarında istifadə etməyə imkan verir.

*6)* Özünəməxsus adət-ənənələr, mədəni irs nümunələri, təkrar olunmazlığı ilə seçilən milli mətbəx, əhalinin qonaqpərvərliyi.

*7)* Turizmin infrastrukturuna uyğun olaraq nəqliyyat sektorunun inkişafı. İqtisadi-coğrafi rayonunda ümumi istifadədə olan avtomobil yollarının uzunluğu 1873 km-dir. Ərazidə hər 1000 km$^2$ düşən avtomobil yollarının sıxlığı 30,8 km-dir.

*8)* Regionların iqtisadi inkişafının davamlı olaraq təmin olunması və infrastrukturun yeniləşdirilməsi. 2004-cü ildən başlayaraq regionlarda qeyri-neft sektorunun inkişafı, sosial infrastruktur təminatının yaxşılaşdırılması, yeni müəssisələrin və iş yerlərinin yaradılması nəticəsində əhalinin məşğulluq

və həyat səviyyəsinin yüksəldilməsi.

*9)* Turizmin müxtəlif növləri üzrə investisiya potensialının olması. Layihələrin maliyyələşdirilməsi, dövlətin infrastruktur sahələrinə yönəltdiyi maliyyə vəsaitləri, yerli sahibkarlıq subyektlərinə ayrılan kreditlər.

Regionda turizm sektorunun çətinlikləri (zəif tərəfləri):

*1)* Landşaft ekzotikliyi ilə seçilən ərazilərdə, təbiət abidələrinin ətrafında sanitar normalara əməl olunmaması və məişət tulantıları ilə çirklənməsi. Antisanitar vəziyyət Lənkəran, Lerik və Masallı rayonlarının təbiətinə, dəniz sahili ərazilərə mənfi təsir edir.

*2)* Tarixi-memarlıq abidələrinə laqeyd münasibət. Bölgədə olan 40-dan çox tarixi-memarlıq abidələrinin yarısından çoxunun bərpaya ehtiyaçı var və ya tamamilə dağılmaq təhlükəsindədir.

*3)* Kütləvi turizmə xidmət edə bilən turist tipli otellərin azlığı və xidmətin qiymətlərlə uyğun gəlməməsi. Son illər tikilən otellər müasir tipli olsa da, artan tələbatı ödəməyə imkan vermir.

*4)* İnfrastrukturun beynəlxalq standartlara cavab verməməsi. Yolların, kommunal xidmətlərin zəif təşkili, təminat sisteminin zəif olması turizminin inkişafına mənfi təsir etmiş olur.

*5)* Mövcud turist marşrutlarının fəaliyyət göstərməməsi. Yerli turist marşrutlarının təşkil olunmaması və ya bu xidmətdən istifadə edənlərin sayının az olması.

*6)* Tanıtım və reklam işinin zəif təşkili. Turizm potensialı reklamının yerli və bəynəlxalq səviyyədə zəif təşkili turizm imkanlarından səmərəli istifadə etməyə imkan vermir.

*7)* Turizm təsərrüfatının inkişafı və ekskursiyaların təşkili üçün bələdçi xidmətlərinin yetərsizliyi.

*8)* Turizm mərkəzlərinin əsasən mövsümü (yay ayları) xidmət göstərməsi. Yay turizm mövsümünün açılışı iyun ayının ortalarına təsadüf edilir, sentybrın sonunda isə bağlanılır. Sonrakı dövrlərdə yalnız bayram günlərində fəallıq niəsbətən artır. Bu da yerləşmə müəssisələrin rentabenli işləməsinə imkan vermir.

Regionda turizmin inkişafı üçün potensial imkanlar:

*1)* Turistlər arasında xarici ölkə vətəndaşlarının sayının artırılması;

*2)* İnfrastrukturun inkişafı və kommunal xidmətlərin müasirləşdirilməsi;

*3)* Orta və kiçik sahibkarlığın inkişafında turizmə prioritet sahə kimi üstünlük verilməsi;

*4)* Avtomobil yolların keyfiyyətinin yaxşılaşdırılması, həmçinin yerli əhəmiyyətli turların hazırlanması.

Regionda turizm sektoru üçün təhlükələr:

*1)* Sürüşmə proseslərinin intensivliyi. Talış dağlarının ətəkləri və orta dağlıq ərazilər intensiv sürüşmə zonasına düşür;

*2)* Xəzər dənizinin səviyyə tərəddüdləri Lənkəran və Astara rayonlarının infrastrukturuna daha çox ziyan vurur;

*3)* Aşağı əmək haqqı;

*4)* Turizm-istirahət mərkəzlərində ekoloji problemlərin olması;

*5)* Dövlət qurumları arasında lazımi koordinasiyanın yaradılmaması;

*6)* Turizmin inkişafının pərakəndəliyi ilə perspektivdə mənfi imic yaranması ehtimalının artması;

*7)* Turizmin inkişafı üçün bürokratik əngəllərin qalması və bunun nəticəsi olaraq turizm sahibkarlığının zəif inkişafı;

*8)* Mövsümü və qısamüddətli turizmə üstünlük verilməsi nəticəsində davamlı turizminin inkişafının təmin olunmaması.

SWOT analizinin sonunda Lənkəran-Astara iqtisadi-coğrafi rayonunun cəlbediciliyinin qiymətləndirilməsi aparılmışdır. Qiymətləndirmə zamanı əsas üstünlük təbiət ərazilərinə və turizm-rekreasiya ehtiyatlarına verilmişdir. Qiymətləndirmə isə A.Aleksandrovanın bal metodları əsasən aparılmışdır.

Cədvəl 1

**Lənkəran-Astara iqtisadi-coğrafi rayonunun turizm baxımından cəlbediciliyinin qiymətləndirilməsi**

| Təbiət əraziləri | Qiymətləndirmə balla | Turizm-rekreasiya ehtiyatları | Qiymətləndirmə balla |
|---|---|---|---|
| Meşə-su | 4 | Lənkəran çimərliyi; Viləşçay, Xanbulançay, Lovayn su anbarları | 4 |
| Meşə (çəmən)-su | 3 | Astara çimərliyi | 3 |
| Meşə-otlaq (çəmən) | 3 | Talış dağları | 3 |
| Kol bitkiləri-otlaq (çəmən) | 2 | | |
| Meşə-Kol bitkiləri | 1 | | |
| Çəmən-otlaq | 0 | | |

Aparılmış araşdırmalar nəticəsində müəyyən edilmişdir ki, bölgədə dərketmə, mədəni, sağlamlıq, kənd turizmi və ekoturizmin daha da inkişaf etdirilməsinə üstünlük verilməlidir. Bu sahədə geniş bazarlara çıxmaq imkanları daha çoxdur. Həmçinin turizm sahəsinin multipikatr rolunu nəzərə

almaqla bölgənin digər sektorları ilə birgə inkişaf etdirilməsi vacibdir.

Dissertasiya işinin III fəsli "**Lənkəran-Astara iqtisadi-coğrafi rayonunda turizm bazarının müasir vəziyyəti**"nə həsr olunmuşdur.

Turizm sənayesinin xidmət sferasına aid ən mühüm seqmentlərindən biri yerləşdirmə xidmətləridir. 2010-cu ildə Lənkəran-Astara iqtisadi-coğrafi rayonunda 68 yerləşmə müəssisəsi fəaliyyət göstərmişdirsə, 2014-cü ildə yerləşdirmə müəssisələrinin sayı 75-ə çatmışdır. Həmin bu illər ərzində yerləşdirmə müəssisələrinin sayında artım olduğu kimi, iqtisadi-coğrafi rayon üzrə nömrələrin sayında da artım müşahidə olunur. Belə ki, 2010-cu ildə 1095 nömrə qeyd olunmuşdursa, 2014-cü ildə bu göstərici 1196 nömrə olmuşdur. Lakin 2010 və 2015-ci illər ərzində iqtisadi-coğrafi rayonda mehmanxanaların və nömrələrin sayında azalma müşahidə olunur. Buna səbəb bəzi yerləşmə müəssisələrinin standartlara cavab verməməsi üçün lisenziyalarının dayandırılması olmuşdur.

2015-ci ildə iqtisadi-coğrafi rayonda mövcud olan 1131 nömrənin 18%-i lüks, 27%-i I dərəcəli, 55%-i isə turist dərəcəli nömrələrdir.

İqtisadi-coğrafi rayonlar üzrə mehmanxana və mehmanxana tipli müəssisələrin əsas göstəricilərinin müxtəlif parametrlər üzrə müqayisəsi göstərir ki, bölgədə mehmanxana və mehmanxana tipli müəssisələrdə birdəfəlik tutum 2010-cu ildə 2678 yer olmuşdursa, sonrakı dövrdə (2012-ci il istisna olmaqla) bu göstərici əvvəlki illərlə müqayisədə ilbəil artaraq 2014-cü ildə 3139 yerə çatmışdır. Birdəfəlik tutumda isə artım 5 il ərzində 461 yer təşkil etmişdir.

Regionda yerləşmə müəssisələrinin təhlili göstərir ki, onlarda yerlərin sayı və birdəfəlik tutum imkanları artan turist tələbatını ödəməyə imkan vermir. Belə ki, yerləşmə müəssislərində yerlərin sayı orta respublika göstəricisindən aşağıdır. Yerləşmə müəssisələrinin əksəriyyətində təklif olunan əlavə xidmətlərin azlığı, ənənəvi olaraq gecələmə və iaşə xidmətləri göstərməsi turistlərin artan maraqlarını ödəməyə imkan vermir.

Hər bir potensial turist, hər şeydən əvvəl, yaşadığı yerdən seçdiyi məkana gedib-gəlməyi, yola sərf etdiyi vaxtı, yol xərclərini və yolun rahatlıq xarakteristikalarını nəzərə alır. Lənkəran-Astara iqtisadi-coğrafi rayonuna hazırkı vəziyyətdə dəmir yolu, təyyarə (Lənkəran), avtobus və fərdi minik maşınları ilə səfərlər mümkündür. Bakı-Astara dəmir yolu və ona paralel Bakı-Astara avtomobil yolu yük və sərnişin daşınmalarında, həmçinin İranla iqtisadi əlaqələrin genişlənməsində mühüm rol oynayır.

Lənkəran-Astara iqtisadi-coğrafi rayonunun avtomobil yolu sisteminin əsasında Bakı-Astara avtomobil yolu təşkil edir. Bu yolun təqribən 1/3 az bir hissəsi yüksək standartlara cavab verir. Ən bərbad hissə Masallı inzibati

rayonunun ərazisinə düşür. İqtisadi-coğrafi rayona gələn turistlərin çox hissəsi öz şəxsi və ya icarəyə götürdükləri avtomobillərlə gəlirlər. Yol infrastrukturunun standartlara cavab verməməsi mənfi amil kimi iqtisadi-coğrafi rayona səfər edən turistlərin sayının artmasına imkan vermir. Bu da Lənkəran-Astara iqtisadi-coğrafi rayonunda nəqliyyat infrastrukturunun avtomobil yolları cəhətdən zəif təşkil olunduğundan və respublikanın digər iqtisadi-coğrafi rayonları ilə müqayisədə az inkişaf etdiyindən xəbər verir.

İqtisadi-coğrafi rayonu Bakı ilə birləşdirən yeni yolun tikintisi artıq xeyli müddətdir ki, davam edir. Bakı-Astara istiqamətində tikilən yeni magistral yolun müxtəlif hissələrində iş gedir. Masallı və Astara rayonlarının ərazisindən keçəcək birinci dərəcəli yolun Sərçüvar kəndindən keçən hissəsinin ümumi uzunluğu 22 km, eni 27,5 m-dir. Yol boyu 6 körpü, 4 yol ötürücü və 133 suötürücünün inşası nəzərdə tutulub.

Bölgəni respublikanın mərkəzi ilə birləşdirən Bakı-Astara dəmir yolu xəttinin 136 km-i Cəlilabad, Masallı, Astara və Lənkəran rayonundan keçir. Dəmir yolu ilə turist daşımalarının statistikası olmasa da, apardığımız araşdırmalar nəticəsində müəyyən edilmişdir ki, turistlər daha çox avtomobil nəqliyyatına üstünlük verirlər.

Bölgə iqtisadiyyatında mühüm layihələrdən biri də Lənkəran Beynəlxalq Hava Limanıdır. Bu liman bölgəyə xarici turistlərin cəlb olunmasında, xüsusilə Rusiya seqmentinə istiqamətlənən tur paketlərin hazırlanmasında əhəmiyyətli rol oynaya bilər. Daha bir layihə inşası başa çatmaqda olan Lənkəran Dəniz Limanıdır. Dəniz Limanı Lənkəran şəhərinin Vel-Siyavər ərazisində yerləşir. Lənkəran Dəniz Limanı istismara verildikdən sonra burada paralel olaraq dəniz su idman növləri də inkişaf edəcəkdir. Dəniz gəzintiləri üçün qayıqların, su velosipedlərinin kirayə məntəqələrinə və yaxtkluba böyük zərurət yaranacaqdır.

Turist xidməti strukturunda ekskursiyalar xüsusi yer tutur. Turizm sənayesində ekskursiyalar öyrənmə və dünyagörüşünün artırılması, səyahət və gəzintilər zamanı yeni müşahidə obyektləri haqqında biliklər qazanılması baxımından da seçilir.

Lənkəran-Astara iqtisadi-coğrafi rayonuna gələn turistlərin marketinq təhlili göstərir ki, onların əksəriyyəti 26-55 yaş arasında olmaqla, əsasən Bakı şəhəri və Aran iqtisadi-coğrafi rayonunun cənub inzibati rayonlarından yay aylarında gələnlər üstünlük təşkil edir. Tədqiqat ərazisinə 1-3 günlük səfər edən turistlər üstünlük təşkil edirlər. Bunun da başlıca səbəbləri turistlərin asudə vaxtları üçün əlavə xidmətlərin zəif təşkili, ekskursiya marşurutlarının peşəkar bələdçi tərəfindən müşayiət olunmaması, infrastrukturun zəif olması və digər subyektiv səbəblərlə bağlıdır.

Rayonlar üzrə səfər edən turistlərin yerləşdirməsi zamanı aydın olub ki, 1-3 gün müddətinə səfərlərdə Lənkəran rayonu, 8-28 gün müddətinə isə Masallı rayonu daha çox turist cəlb edib. Ümumiyyətlə, iqtisadi-coğrafi rayona 8-28 gün müddətinə səfər edənlərin 99,3%-i Masallı rayonuna səfər etmişdir. Bu da rayonda mövcud olan müalicə-sağlamlıq turizminin imkanlarının geniş olması ilə əlaqədardır. Buna nümunə olaraq Masallı şəhərindən 10 km aralı olan "Fatimeyi-Zəhra" İstisu sanatoriyasıdır.

Bölgədə turizmin inkişafında turist marşrutlarının təşkili gələn turistlərin sayının artırılmasına, həmçinin onların qalma müddətinin uzadılmasına imkan verir. Lənkəran-Astara iqtisadi-coğrafi rayonu üzrə turist marşrutları kimi "Cənub marşrutu"nu Bakı-Astara xəttini, həmçinin onun Cəlilabad, Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara istiqamətlərini qeyd etmək olar.

Tərəfimizdən aparılan araşdırma nəticəsində Lənkəran-Astara iqtisadi-coğrafi rayonunda yeni marşrutların yaradılmasını təklif edirik. Bunlara aşağıdakılar aiddir.

*1-ci istiqamət:* Lənkəran-Boladi-Separadi-Şağlaser-Vilvan-Veravul-Kənarmeşə istiqaməti ənənəvi irs nümunələrinin bir hissəsi olan dülgərlik, dulusçuluq, dəmirçilik, xalçaçılıq kimi sənətlərlə bərabər bəzi nadir sənət növlərinin də inkişaf etdiyi həsirçilik, zənbilçilik, sandıqçılıq, kənəfçilik, camçılıq və s. nümunələri ilə fərqlənir ki, bu da turizmin inkişafı üçün əlverişli şərait yaradır. Tarixən dulusçuluq, həsir toxuma və xalçaçılıq inkişaf etmişdir.

*2-ci istiqamət:* Masallı-Lənkəran-Lerik-Astara istiqamətində cəlbedici təbii-ekoloji turların təşkili mümkündür. Masallıda Viləş su anbarının, Lənkəran-Astara yolunun üstündə Xanbulan və Lovayn su anbarlarının, Lerikdə Zuvand yasaqlığı, Astarada Hirkan Milli Parkının bu əraziyə düşməsi, dağlıq ərazilərdə təbiət abidələrinin olmasını təbiət turları və foto-safarinin təşkili baxımından əhəmiyyətli saymaq olar.

*3-cü istiqamət:* Masallı-Lənkəran-Lerik folklor turizm istiqamətini təklif etmək olar. "2010-2014-cü illər üçün xalq yaradıcılığı paytaxtları" proqramının tərkib hissəsi olaraq (2011-ci ildə Lənkəranın, 2013-cü ildə isə Masallının "Folklor paytaxtı" statusu qazanması xüsusi bir hal kimi) region turistlərin diqqət mərkəzində olmuşdur.

*4-cü istiqamət:* Tədqiqat ərazisində *qurman turlarının* istiqamətlərini proqnoz olaraq Masallı-Təzə Alvadı-Böyük Xocavar-Kosagül-Lənkəran-Liman-Digah-Sutəmurdov-Astara-Təngərüd-Maşxan-Ərçivan kimi təklif etmək olar. Bu istiqamətdəki kəndlərdə turistlərin ləziz cənub mətbəxindən dadması mümkündür. Ümumiyyətlə, cənub ragionunun istənilən kəndində mətbəx mədəniyyəti qədim və zəngindir. Bölgədə 21 növ düyü, 23 növ ət,




Şək 1. Lənkəran-Astara iqtisadi-coğrafi rayonunda
istirahət mərkəzləri və turizm marşrutlarının xəritəsi

7 növ quş əti, 20 növ un məmulatı, 9 növ balıqdan bişirilən yeməklər məlumdur. Bölgənin özünəməxsus ləvəngi xörəkləri də çox ləziz dada məxsusdur.

*5-ci istiqamət:* Cəlilabad-Masallı-Yardımlı-Lerik-Lənkəran-Astara üzrə *kombinə edilmiş tur.* Bu marşrut tarixi-memarlıq, istirahət, ekoloji tur, kənd

turizmi və müalicəvi turizm üçün əhəmiyyətli sayılır. Cəlilabadda tarixi yaşayış məntəqələri və kurqanlar, Masallı rayonunda "Masallı" şəlaləsi, tarixi abidələr və bir çox müalicəvi əhəmiyyəti olan mineral sular, Yardımlı rayonunun Nisəqala kəndində "Yardımlı" (Tək Dam) şəlaləsi, Lerik rayonunun Qələbin kəndində şəlalə, Büzeyir kəndində Büzeyir mağarası və gözəl meşələri, Lənkəranda bir çox tarixi-memarlıq abidələri və müalicəvi bulaqlar, Astara rayonunda "Zənguləş istisu", "Yanar Bulaq" kompleksi turistlər üçün maraqlı yerlərdəndir. Marşrutun üstünlükləri həm də ətraf ərazilərin müşahidəsi imkanlarının, istirahət üçün yerlərin, gecələmə və iaşə obyektlərinin mövcudluğu ilə bağlıdır. Marşrutda fotoovçuluq və foto-safari üçün əlverişli şərait vardır.

İqtisadi-coğrafi rayonda tarixi-mədəni obyektlərə, abidələrə ekskursiya marşrutlarının yaradılması imkanları böyükdür. Bu ekskursiyalar həm ayrı-ayrı rayonlar, həm də iqtisadi-coğrafi rayon səviyyəsində mümkündür. Yeni turist marşrutları və ekskursiyaların təşkili üçün digər tarixi-memarlıq, dini, arxeoloji abidələrdən istifadə etmək mümkündür.

Dissertasiya işinin IV fəsli "**Lənkəran-Astara iqtisadi-coğrafi rayonunda turizmin inkişafında beynəlxalq təcrübədən istifadə və prioritet istiqamətlər"**ə həsr olunmuşdur. Bu fəsildə xarici ölkələrin təcrübəsi öyrənilmiş və regionun potensial imkanları müəyyən olunmaqla prioritet istiqamətlərin inkişafında tətbiqi yolları müəyyən edilmişdir.

Turizm sektorunun inkişaf edilməsi üçün ilk növbədə bu sahəyə ayrılan investisiya mühiti öyrənilmişdir. Lənkəran-Astara iqtisadi-coğrafi rayonuna yönələn xarici investisiyalar əsasən Dünya Bankı və Asiya İnkişaf Bankı tərəfindən mövcud nəqliyyat infrastrukturuna, su təchizatı və kanalizasiya sistemlərinin tikintisinə istiqamətlənmişdir. Bu sektorlar da turizm üçün çox əhəmiyyətli sahələrdir və dolayısı ilə turizmə təsir edir.

Azərbaycanda turizm sənayesinə yerli investisiya qoyuluşu mexanizmi fərqlidir. Ölkədə turizmin inkişafında dövlət büdcəsi imkanlarından istifadə olunması hazırki dövrdə iri layihələr şəklində həyata keçirilir. Həmçinin dövlətin bu sahəyə ayırdığı maliyyə vəsaitləri turizmin idarə olunmasında, beynəlxalq tədbirlərdə ölkənin təbliği və reklamına, ehtiyatların qiymətləndirilməsinə yönəldilir.

2013-2015-ci illərdə dövlət büdcəsindən və prezidentin ehtiyat fondundan Lənkəran-Astara iqtisadi-coğrafi rayonunda abadlıq-quruculuq işlərinə 2 mln manat, sosial-iqtisadi inkişafının sürətləndirilməsinə 4 mln manat, sahibraklığın inkişafı və yerli əhalinin rifahının yaxşılaşdırmasına 25,7 mln manat, yol infrastrukturunun bərpası və yenidən qurulmasına 59,8 mln manat, müxtəlif təyinatlı yeni binaların tikintisinə 12 mln manat, tarixi-

memarlıq abidələrinin bərpasına 143,6 min manat ayrılmışdır.

Sahibkarlığa Kömək Milli Fondu tərəfindən isə 2014-cü ildə investisiya layihələri üzrə Lənkəran-Astara iqtisadi-coğrafi rayonuna 29,7 mln manat vəsait ayrılmışdır. Bu layihələr arasında turizm sektorunun payı az olsa da, Lənkəran rayonunda "Meşəbəyi" kurort-sanatoriya kompleksi, "Kaspi" oteli, Masallı rayonunda "Viləş" oteli, Lerik rayonunda "Relax" istirahət mərkəzi, Astara rayonunda "Şidan" oteli kimi turizm obyektləri inşa edilmişdir.

Təhlil göstərir ki, Lənkəran-Astara iqtisadi-coğrafi rayonunda turizmin prioritet sahələri kimi kurort-müalicə, ekoloji-kənd turizmi, etnoqrafik və dini turizmi, dağ, idman, atçılıq turizmini inkişaf etdirmək olar.

*Kurort-müalicə turizminin inkişaf istiqamətləri.* Lənkəran-Astara iqtisadi-coğrafi rayonunda kurort-müalicə turizm təsərrüfatının inkişafı üçün zəngin balneoloji resurslar və mikroiqlim şəraiti vardır. Regionda üç sanatoriya tipli müalicə müəssisəsi, daha çox yerli əhəmiyyətli olan 14 müalicə-sağlamlıq mərkəzi fəaliyyət göstərir. Lənkəran rayonunda "İstisu" termal sularının bazasında "Abşeron" Qrup Hotel beynəlxalq şəbəkəsi tərəfindən 650 yerlik müasir kurort SPA kompleksinin tikintisi planlaşdırılır. Bölgənin yüksək debitli digər termal sularından olan Ərkivan, İbadisu, Ənci, Meşəsu, Biləsər, Qızılca, Qotursu və s. mənbələrin yaxınlığında yüngül konstruksiyalı kurort kompleksləri tikmək mümkündür.

*Müalicə-sağlamlıq* turizminin inkişaf səviyyəsinə görə dünyada seçilən ölkə olan Çexiyanın kurortlarında (Karlovı Varı, Marianske Lazne, Frantişkovı Lazne) müasir texnologiyaların tətbiqi yolu ilə yüksək səviyyəli tibbi xidmətlə yanaşı, SPA, əyləncə, asudə vaxtın təşkili proqramları təqdim olunur. Çexiyada kurort turizminin inkişafı ilk öncə zəngin balneoloji ehtiyatlara əsaslanır ki, iqtisadi-coğrafi rayonun ərazisində də bu təcrübədən istifadə etmək mümkündür.

*Ekoloji və kənd turizminin inkişaf istiqamətləri.* Ekoloji və kənd turizminin təşkili üçün müxtəlif regionların potensialı, onlarda toxunulmamış ərazilərin mövcudluğu ilə müəyyənləşir. Lənkəran-Astara iqtisadi-coğrafi rayonunun ərazisində Xanbulan, Viləşçay və Lovayn su anbarları, Hirkan Milli Parkı, Zuvand və Rvarud Dövlət Təbiət Yasaqlığı, Viləşçay dərəsi, Yanardağ və Yanarsu təbiət obyektləri yerləşir ki, bunlar da ekoloji turizmin təşkili üçün geniş imkanlar açır. Bu təbiət ərazilərinə ekoloji turların təşkili bölgəyə gələn turistlərin asudə vaxtının səmərəli təşkilində, həmçinin onun təbiliğatı və reklamında əhəmiyyətli rol oynaya bilər.

Ekoloji və kənd turizmində İtaliya təcrübəsindən istifadə oluna bilər. İtaliyada kənd turizmində ümumi sayı 10 mindən çox olan fermalar, həmçinin villa və malikanə sahibləri iştirak edirlər. İtaliyanın kənd turizmi üç

istiqamətdə özünü büruzə verir: 1) təbiət və sağlamlıq; 2) milli mətbəxt; 3) idman.

Birinci istiqamət kənd və ekoloji turizmin birgə təşkilindən ibatrətdir. Kyanti, Umbriya və Siciliya əyalətlərində geniş yayılmışdır. Lənkəran-Astara iqtisadi-coğrafi rayonunda qeyd olunan istiqamətdən istifadə etməklə həm Hirkan Milli Parkının imkanlarından, həm də yerli balneoloji-iqlim ehtiyatlarından yararlanmaq olar.

İkinci istiqamət Toskana, Veneto, Umbriya, Marke, Puliya və Kalabriya əyalətlərində tətbiqini tapır. Bu əyalətlərdə ferma və villalar, malikanələr çoxdur. Bundan başqa ölkənin şərabçılıq rayonlarında da turizmin bu tipinə üstünlük verilir. Hər bir kəndli təsərrüfatında dar ixtisaslaşma müşahidə olunur. Balıq, dəniz məhsulları, zeytun yağı, müxtəlif şərabların kənd şəraitində hazırlanması turistlər üçün həm istehsalla tanış olmaq, həm də bu nemətlərlə qidalanmaq baxımından maraq doğurur. Bu baxımdan iqtisadi-coğrafi rayonun zəngin milli mətbəxt ənənələrinin olması, onların yaşayış məntəqələri üzrə müxtəlifliyi kənd turizmindən geniş istifadə olunmasına imkan verir.

Üçüncü istiqamətdə kənd turizmində idman tədbirlərindən istifadə olunmasıdır. İtaliyada üzgüçülük, velosiped, atçılıq, piyada yürüşlər və tennis idmanına üstünlük verirlər. Tədqiqat regionunda velosiped və piyada yürüşlri üçün çığırların müəyyənləşdirlməsi (Hirkan Milli Parkı və Astara rayonunda), atçılıq (Lerik və Yardımlı rayonlarında) turizmini təşkil etmək üçün geniş imkanlar vardır.

İtaliya təcrübəsindən əlavə Çin və Yaponiya təcrübəsindən də istifadə etmək olar. Məsələn, Çində və Yaponiyada "Bir kənd, bir məhsul" siyasətinə uyğun olaraq, kənd turizmi və kənd təsərrüfatının inkişafı ilə əlaqədar olaraq bu sahəsdə mühüm nəticələr əldə edilmişdir. Daha çox turistlərin cəlb edilməsi üçün hər kəndin əhalisi yalnız bir növ məhsul istehsal edir və öz məhsullarının satışı ilə məşğul olur.

Qeyd olunan təcrübənin Lənkəran-Astara iqtisadi-coğrafi rayonunda tətbiq olunması imkanları vardır. Regionda çayçılıq, çəltikçilik, suptropik meyvələrin yetişdirilməsi, feyxoa və qaragilə kompotları, böyürtkən mürəbbələri və müxtəlif spesifik turşuların (armud, əzgil, feyxoa, göyəm və s.) kənd turizmində istifadə olunması mümkündür.

Lənkəran-Astara iqtisadi-coğrafi rayonunda yerləşmə müəssisələrinin inkişaf dinamikası göstərir ki, istirahət məqsədilə tikilən obyektlər üstünlük təşkil edir. İstirahət turizminin perspektivlərində turist tipli otellərin, hostellərin tikilməsi, ətraf mühitə ziyan vurmadan turizm rekreasiya zonaları daxilində inkişaf etdirilməsi, istirahətə gələnlər üçün əlavə xidmətlərin,

turların təşkili vacibdir. Daxili turizmdə mövcud marşrutların təkmilləşdirlməsi və ekskursiyaların təşkili bölgəyə gələn turistlərin sayının artmasına səbəb ola bilər.

Dağ turizmi səyahətin idmana yaxın olan çox mürəkkəb növüdür. Turizmin bu növü alpinist və dağ turist düşərgələrində təlim keçmiş fiziki, nəzəri və praktik cəhətdən hazır olan idmançılar üçündür. Lənkəran-Astara iqtisadi-coğrafi rayonunda belə turizmin təşkili xüsusi hazırlıq işləri tələb olunur. Dağ turizmi dünyanın müxtəlif ölkələrində inkişaf və tətbiq edilir.

Regionda su turizmi potensialından və onun idman turizmi ilə əlaqələndirməsindən istifadə mümkündür. İdman turizmi məqsədilə təbiət abidələrindən istifadə olunması imkanı da vardır. Su turizmi teploxod, yaxta və digər müxtəlif növ gəmi və qayıqlarda Xəzər dənizində təşkil olunmalıdır.

Lənkəran-Astara iqtisadi-coğrafi rayonunda müəyyən edilmiş marşrut üzrə piyada turizm səyahətlərinin təşkil olunmasına tələbat hiss olunur. Bu, yay mövsümündə ən geniş yayılmış turizm sahəsidir və iqtisadi-coğrafi rayon üçün məqbul turizm növüdür. Elə mürəkkəb piyada turist marşrutları olur ki, onları ancaq təcrübəli, idmançı turistlər cəlb edilməlidir, sadə marşrutlarda isə qeyri-peşəkar qruplarla səyahət mümkündür. Qeyd olunanlar bu regionda həm mürəkkəb, həm də sadə piyada turist marşrutları yaratmaq imkanını gerçəkləşdirəcəkdir. Piyada turizm əsasən meşəlik və dağətəyi ərazilərdə həyata keçirilməsi daha məqsədəuyğundur.

## NƏTİCƏ

1. Lənkəran-Astara iqtisadi-coğrafi rayonunda turizmin inkişaf tendensiyasını müəyyən etmək üçün SWOT analizi aparılmış və ərazinin cəlbediciliyinin qiymətləndirilməsi bal şkalasına əsasən verilmişdir. Turizm-rekreasiya ehtiyatlarından Lənkəran çimərliyi, Viləşçay, Xanbulançay, Lovayn su anbarı 4 bal, Astara çimərliyi 3 bal, Talış dağları və onun cəlbedici əraziləri 3 bal ilə qiymətləndirilmişdir.

2. Lənkəran-Astara iqtisai-coğrafi rayonuna 2004-2015-ci illərdə 771,2 mln. manatdan çox investisiya cəlb edilmişdir ki, onun da əsas hissəsi yəni 80%-i kənd təsərrüfatı və infrastruktur sahələrinin payına düşmüşdür. Turizm sahəsinə yönəldilən investisiyalar isə cəmi 7,5% təşkil etmişdir. Lakin bu göstəricilər iqtisadi-coğrafi rayonun ümumi iqtisadi inkişafına qoyulan investisiyaların 6 %-i deməkdir. Göstəricinin aşağı olması turizm təsərrüfatının inkişafına mənfi təsir edir ki, bu da öz növbəsində turistlərin regiona səfər etməsində özünü biruzə edir.

3. Beynəlxalq təcrübədən istifadə etməklə iqtisadi-coğrafi rayonda təbii turizm ehtiyatlarını qoruyaraq regionun Xanbulançay, Viləşçay, Lovəyn su

anbarları, Zuvand və Rvarud Dövlət Təbiət Yasaqlıqları ərazisində ekoloji turizmin müvafiq infrastrukturunun yaradılması, marketinq və reklam işinin təşkili və s. rəqabət qabiliyyətli turizmin inkişafına təkan verir. Beynəlxalq təcrübəyə əsaslanmaqla Lənkəran rayonunda Haftoni, İbadi, Masallı rayonunda İstisu müalicəvi sularının bazasında müasir kurort komplekslərinin tikintisi əsaslandırılmışdır.

4. Hirkan Milli Parkının ərazisi daxilində və onun ətraf sahələrini əhatə etməklə fotosafari, müxtəlif heyvanların yaşayış tərzinin, relikt-endemik bitkilərin öyrənilməsi də daxil olmaqla ekoloji, dərketmə, mədəni və s. məqsədli turizm marşrutları xəritəsi tərtib olunmuşdur. Marşrutlar üzrə turlar təşkil olunmuş və onların səmərəlik baxımınan qiymətləndirilməsi aparılmışdır. Təklif olunan marşrutların köməkliyi ilə regiona səfər edən (2015-ci ildə 17053 nəfər) turistin sayını 30% artırmaq mümkündür.

## Təkliflər

1. Turizm mərkəzlərinin, destinasiyaların yaradılması üçün yerlər ayrılmalı və onların sərhədləri müəyyən olunmalıdır.

2. Bölgədə kurort-turizm təsərrüfatının inkişafında kütləvi turist axınlarının təmin olunması üçün sosial turizmin inkişafı, həmçinin üç və iki ulduzlu otellərin inşası və xidmətlərin genişləndirilməsi.

3. Regionda mövcud turizm potensialına əsaslanan turist marşrutlarının təşkili daha çox turist cəlb etməyə imkan verir. Buna görə də, Lənkəran-Astara iqtisadi-coğrafi rayonunda ekoloji, milli irs, dərketmə məqsədli turların bölgəyə gələn turistlərə təklif olunması vacibdir. Qeyd olunan turların təşkili üçün müvafiq infrastrukturun yaradılması marşrutun cəlbediciliyini artıra bilər.

4. Təklif edilən turist marşrutları beynəlxalq, ölkə və yerli əhəmiyyətli istiqamətlərlə əlaqələndirilməli, həmçinin marşrutlarda regionun bütün potensialı nəzərə alınmaqla yanaşı nəqliyyat infrastrukturunun təkminləşdirilməsi labüddür.

## Dissertasiya mövzusu üzrə çap edilmiş elmi əsərlər:

1. Talıbov S.Ə. Davamlı inkişaf konsepsiyasının turizmə tətbiqi haqqında / “Heydər Əliyevin və Azərbaycanda coğrafiya elminin inkişafı” mövzusunda respublika elmi konfransı. Bakı: AzTU, 2013, s. 333-336

2. Talibov S.A. Development prospects of sports tourism for Lankaran-Astara economic region // University of London; British Journal of Science, Education and Culture. №1, (5), Volume IV. London: London University

Press, 2014, p. 560-563
3. Talibov S.A. On the medical-health tourism potential of Lankaran-Astara economic-geographical region // Таврический Национальный Университет им. В.И.Вернадского, Култура народов причерноморья, научный журнал, № 277, Симферополь: Таврия, 2014, с. 85-88
4. Талыбов С.А. Роль туризма в социально-экономическом развитии Лянкяран-Астаринского региона // Тернопiського нацiонального педагогiчного унiверситету iменi Володимира Гнатюка, Науковi Записки, Серiя: Географiя, №2, (Випуск 39). Тернополь: 2015. с. 128-135
5. Talıbov S.Ə. Lənkəran-Astara iqtisadi-coğrafi rayonunun rekreasiya-turizm ehtiyatlarından müalicə-sağlamlıq turizmində istifadə imkanları // Bakı Universitetinin Xəbərləri, Təbiət elmləri seriyası №1. Bakı: Bakı Universiteti, 2015.s. 157-164
6. Talıbov S.Ə. Lənkəran-Astara iqtisadi-coğrafi rayonunda işsizlik probleminin həllində turizmin rolu // Gənc alimlərin əsərləri №12. Bakı: 2015. s. 85-90
7. Talıbov S.Ə. Lənkəran-Astara iqtisadi-coğrafi rayonunda turizmin inkişafına təsir edən investisiyalar // Bakı Universitetinin Xəbərləri, Təbiət elmləri seriyası №4. Bakı: Bakı Universiteti, 2015. s. 148-157
8. Talıbov S.Ə. Turizm növlərinin inkişafının Lənkəran-Astara regionunun iqtisadiyyatına təsiri // AMEA, İqtisadiyyat İnstitutu, Elmi əsərlər №5. Bakı: 2015. s. 195-201
9. Talıbov S.Ə. Lənkəran-Astara iqtisadi-coğrafi rayonunda turizmin müasir vəziyyəti və inkişaf tendensiyası / Doktorant və gənc tədqiqatçıların XIX Respublika elmi konfransının Materialları, II cild. Bakı: 2015, s. 201-203
10. Talibov S.A. The role of tourism in socio-economic development in the Lankaran-Astara economic-geographical region of Azerbaijan // East European scientific journal №15. Warszawa: 2016. p. 123-133
11. Talibov S.A. Importance of tourism in the development of Lankaran-Astara economic geographical region of Azerbaijan // The University of Oxford, Oxford Review of Education and Science. № 1, (11), Volume V. United Kingdom: Oxford University Press, 2016, p. 720-726
12. Talibov S.A. Role of beach tourısm in Lankaran-Astara economic region in development of Azerbaijan tourism ties // Princeton University, American journal of Science and Technologies. № 1, (21), Volume III. USA: Princeton University Press, 2016, p. 275-283
13.Talıbov S.Ə. Azərbaycanın Lənkəran-Astara iqtisadi-coğrafi

rayonunun inkişafında turizmin əhəmiyyəti / III Beynəlxalq türk dünyasi araşdırmaları simpoziumu, IV cild. Bakı: Elm və təhsil, 2016, s. 495-500

14.Talıbov S.Ə. Lənkəran-Astara iqtisadi-coğrafi rayonu üzrə turizmin SWOT təhlili / Doktorant və gənc tədqiqatçıların XX Respublika elmi konfransının Materialları, II cild, Bakı: 2016, s. 281-283

15.Talıbov S.Ə. Lənkəran-Astara iqtisadi-coğrafi rayonunda ekskursiyaların təşkili imkanları / Gənc Tədqiqatçıların IV Beynəlxalq Elmi Konfransı, I Kitab, Bakı: Qafqaz Universiteti, 2016, s. 545-547

16. Талыбов С.А. Роль туризма в социально-экономическом развитии Лянкяран-Астаринского региона Азербайджана // Науковий вісник Херсонського державного університету, Серія географічні науки, Випуск № 6. Херсон: Гельветика, 2017, с. 200-205

**С.А.Талыбов**

## Перспективы развития туризма в Лянкаран-Астаринском экономико-географическом районе


## РЕЗЮМЕ

Диссертационная работа состоит из введения, четырех глав, заключения и предложений, 139 списка использованной литературы.

Во введении указывается актуальность, цель и задачи, уровень изученности работы, методы исследования, информационная база, научная новизна и практическая значимость.

В первой главе диссертации под названием **"Теоретико-методологические основы развития туризма"** даются теоретические аспекты устойчивого развития туризма, место туристского сектора в хозяйственной структуре страны, методические основы изучения туризма. Здесь рассмотрены возможности использования имеющихся ресурсов в устойчивом туризме, изучение туристского потенциала, динамика развития и доля туризма в экономике страны.

Вторая глава посвящена изучению **"Особенностям развития туризма в Лянкаран-Астаринском экономико-географическом районе**". В этой главе изучены природные условия и туристско-рекреационные ресурсы Лянкаран-Астаринского экономико-географического района, для их эффективного использования были проведены SWOT анализы и определены преимущества развития в регионе познавательного, культурного, оздоровительного, сельского туризма и экотуризма и учтена его мультипликаторная роль.

В третьей главе посвященной **"Современному состоянию туристского рынка Лянкаран-Астаринского экономико-географического района** " проведен маркетинговый анализ динамики развития, транспорта и других отраслей социальной инфраструктуры, а также приезжающих в регион туристов, для решения проблем обосновывается организация в нескольких направлениях целевых туристских маршрутов.

**"Использованию международной практики и приоритетные направления в развитии туризма в Лянкаран-Астаринском экономико-географическом районе**" посвящена четвертая глава диссертационной работы. В этой главе изучена практика зарубежных стран, для внедрения его в развитие приоритетных направлений были определены потенциальные возможностей региона, показаны инвестиционные направления, как перспективные направления обосновано развитие направления комплексного курортно-оздоровительного туризма и СПА, экологического и сельского зеленого туризма, а также отдыха, горного, морского и пешего туризма. По диссертационной теме издано 16 статей и тезисов.

**S.A.Talibov**

## Development perspectives of tourism in Lankaran-Astara economic-geographical region

## SUMMARY

The dissertation consists of a preface, four chapters, conclusion and implications, as well as 139 references.

The significance of the research work, its main aim and purpose, the level of its study, research methods, sources of information, discussed points, scientific innovation and practical implications were covered in the preface.

In the first chapter of the dissertation, which is titled **as "Theoretical-methodological foundations of the development of tourism"**, theoretical aspects of the sustainable development of tourism, the place of tourism in country's economics and methodological basics of the study of tourism were identified as primary discussion points. Further to these, the opportunities to exploit tourism resources for its sustainable development, the study of tourism potentials, the contribution of tourism on the economics of the state and its growth pace were explored in this chapter.

The second chapter of the dissertation work is devoted to the study of **"Characteristics of the development of tourism in Lankaran-Astara economic-geographical region".** Natural landscape and tourism-recreational resources of Lankaran-Astara economic-geographical region were researched in this chapter and SWOT analysis has been carried out to explore the advantages of educational, cultural, village and eco tourism for this region, as well as its multiplication role.

The third chapter entitled as **"The modern status of tourism market in Lankaran-Astara economic-geographical tourism region"** reveals growth dynamics of accommodation, tourist-marketing analysis of transportation and other social infrastructure sector. It also corroborates to organize tourist excursions in different directions with the aim of elimination problems in this region.

The fourth chapter of the dissertation is dedicated to find out **"Primary directions of the development of tourism and the application of international experiences in the development of tourism in Lankaran-Astara economic-geographical tourism region".** The practices of foreign countries have been studied in this chapter and potential opportunities of the region and using them for the development of primary sectors have been identified. Furthermore, main investment sectors and potential directions of tourism as the development of recreation and treatment, SPA, ecological and village tourism, as well as mountain-sea, sports tourism were established in this part of the research work.

16 research papers and abstracts have been published on this dissertation

work.

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ГЕОГРАФИИ им. акад. Г.А.АЛИЕВА**

*На правах рукописи*

**САБУХИ АЛИБАЛА ОГЛЫ ТАЛЫБОВ**

# ПЕРСПЕКТИВЫ РАЗВИТИЯ ТУРИЗМА В ЛЯНКАРАН-АСТАРИНСКОМ ЭКОНОМИКО-ГЕОГРАФИЧЕСКОМ РАЙОНЕ

**5401.01 – Экономическая география**

## А В Т О Р Е Ф Е Р А Т

**диссертации на соискание ученой степени**
**доктора философии по географии**

**БАКУ – 2018**